# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 348** **Bakı şəhəri, 14 sentyabr 2022-ci il**

***“Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 may tarixli 3259 nömrəli Sərəncamının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 2, maddə 118, № 6, maddə 442; 2000, № 8, maddə 646; 2003, № 6, maddə 342; 2004, № 9, maddə 750; 2005, № 6, maddə 558, № 11, maddə 1061; 2008, № 11, maddə 1042; 2009, № 1, maddə 34; 2012, № 9, maddə 926; 2014, № 1, maddə 57, № 6, maddə 747; 2016, № 9, maddə 1575; 2017, № 7, maddə 1503, № 12 (II kitab), maddə 2481; 2018, № 2, maddə 333, № 10, maddə 2156; 2019, № 1, maddə 153; 2020, № 11, maddə 1417; 2021, № 10, maddə 1195; 2022, № 4, maddə 390) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarəti məntəqələri haqqında Əsasnamə”nin 2-ci bölməsinin birinci hissəsində, 3-cü bölməsinin birinci hissəsinin beşinci abzasında, 4-cü bölməsinin birinci hissəsinin onuncu və on ikinci abzaslarında “təsirli” sözü “təsir edən” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***